# Nəhəng kommunikasiya layihələri Azərbaycanı əhəmiyyətli tranzit ölkəyə çevirib

Respublikamızda nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı irimiqyaslı layihələrin həyata keçirilməsi üçün bu sahəyə böyük həcmli dövlət investisiyaları yönəldilib. Başqa sözlə, avtomobil yollarının və dəmir yolu xətlərinin, xüsusilə, Gürcüstan, Rusiya və İran istiqamətində ölkə ərazisindən keçən magistral yolların beynəlxalq standartlar əsasında yenidən qurulması, paytaxtda, habelə regionlarda beynəlxalq hava limanlarının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində gerçəkləşdirilən layihələr Azərbaycanın nəqliyyat infrastrukturunun müasirləşməsində əhəmiyyətli rol oynamaqla yanaşı, respublikamızın tranzit potensialını daha da gücləndirib.

Bütün bunlar deməyə əsas verir ki, artıq respublikamızın nəqliyyat təhlükəsizliyi təmin edilib, Azərbaycan Avrasiyanın önəmli nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilib və ölkəmizin fəal iştirakı ilə Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizləri səmərəli fəaliyyətdədir və Şərq–Qərb nəqliyyat dəhlizi üzərində artıq iki qol–biri Çin–Qazaxıstan–Azərbaycan–Gürcüstan–Türkiyə–Avropa, digəri isə Pakistan–Əfqanıstan–Türkmənistan–Azərbaycan–Gürcüstan–Türkiyə–Avropa mövcuddur. Hər ikisi Azərbaycan ərazisindən keçir və təbii ki, respublikamızın imkanlarını daha da genişləndirir. Şimal-Cənub nəqliyyat dəhlizi isə Şimali Avropa-Rusiya-Azərbaycan-İran-Hindistan ölkələrini əhatə edir. Bu, sözügedən istiqamətdə də nəqliyyat təhlükəsizliyimizin təmin olunmasından xəbər verir.

Yeri gəlmişkən, burada onu da vurğulayaq ki, Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu da region üçün strateji əhəmiyyətə malikdir, konteyner daşımaları, Avrasiyaboyu multimodal nəqliyyatın həcminin artırılması, Asiyadan Avropaya istiqamətlənən karqo axınları üçün rəqabətqabiliyyətli bağlantı təmin edir. Asiya və Avropa arasında ən qısa marşrutu reallaşdırmaqla BTQ dəmir yolu bağlantısı gələcəkdə bir neçə milyon ton karqo daşınmasının reallaşdırılması məqsədi daşıyır.

***Müstəqillik illərində beynəlxalq əhəmiyyətli təşəbbüslərlə çıxış edən Azərbaycan təkcə tranzit ölkə kimi yox, həm də Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi layihələrini gerçəkləşdirməklə Şərqlə Qərb arasında əlaqələri reallaşdırır, Şimalla Cənubu qovuşduran mühüm tranzit mərkəz missiyasını uğurla yerinə yetirir. Bununla da Azərbaycan Mərkəzi Asiya və Xəzəryanı dövlətlər arasında iqtisadiyyatı ən sürətlə inkişaf edən bir respublika olduğunu, əlverişli investisiya mühiti yaratdığını təsdiqləyir.***

Hazırda Qars Logistik Mərkəzi səmərəli fəaliyyət göstərir və BTQ dəmir yolu ilə daşımaların həcminin artmasına müstəsna təsirə malikdir.

Qlobal layihələr sırasında Cənub Qaz Dəhlizi xüsusi önəm daşıyır. Bu dəhliz inşa olunmadan investor bura və heç bir digər layihəyə vəsait qoymazdı, yaxud da tərəddüd edərdi. Çünki istər “Abşeron”, “Qarabağ”, istərsə də digər yataqlardan çıxarılacaq qazın ixracı üçün yol olmalıdır. Ona görə Cənub Qaz Dəhlizinin əhəmiyyəti təkcə “Şahdəniz” layihəsi ilə məhdudlaşmır. Bu layihə gerçəkləşdirilmədən Azərbaycanın enerji siyasəti yarımçıq qala bilərdi. Amma bu gün respublikanın enerji siyasəti ölkəmizin maraqlarını tam təmin edir. Məsələn, “Şahdəniz” yatağı ən azı yüz il bundan sonra Azərbaycanı və tərəfdaş ölkələri qazla təchiz edəcək.

Qeyd edək ki, Azərbaycan qazı Avropaya Cənubi Qafqaz, Ttans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) qaz kəmərləri ilə nəql olunaraq çatdırılır.

Xatırladaq ki, Cənub Qaz Dəhlizi layihəsinin bir hissəsi olan TAP kəməri ilə “Şahdəniz-2” layihəsi çərçivəsində hasil olunan qazın ilkin olaraq ildə 10 milyard kubmetrinin Avropaya nəqli nəzərdə tutulur. Yunanıstan, Albaniya və Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna qədər uzanan bu boru kəmərinin potensialı onun ötürücülük gücünü iki dəfə artıraraq, ildə 20 milyard kubmetrə çatdırmağa imkan verir.

Onu da qeyd edək ki, indiyədək həyata keçirilən layihələr çərçivəsində Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin istifadəyə verilməsi nəinki Azərbaycanın və Türkiyənin, hətta digər ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində müstəsna rol oynayıb.

Hazırkı geosiyasi şəraitdə multimodal daşımaların ayrılmaz tərkib hissəsi olan konteyner daşımalarında yüklərin dəniz yolu ilə daşınmasına xüsusi önəm verilir. Çünki müxtəlif nəqliyyat növləri ilə yüklərin daşınmasında konteynerlərdən istifadə malın çatdırılmasının dəyərini və buna sərf edilən vaxtı xeyli azaldır. Şəksiz üstünlüklərə malik olan dəniz konteyner daşımaları nəqliyyat xidmətləri bazarında haqlı olaraq lider mövqe tutur.

Azərbaycanda da dəniz daşımalarının inkişafına Bakı Beynəlxalq Dəniz Ticarət Limanı öz töhfəsini verir. Çinin təşəbbüsü ilə başlanmış “Bir kəmər, bir yol” meqalayihəsinin əsas layihələrindən biri hesab edilən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı XXI əsrdə dünya ticarətinin və ölkələr arasında qarşılıqlı münasibətlərin inkişafına çox böyük təsir göstərir.




Azərbaycanı regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevirmək strategiyasının tərkib hissəsi olan, Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici rol oynayır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Bakı–Tbilisi–Qars dəmir yolu xətti üçün birbaşa yüktoplama məntəqəsi funksiyasını yerinə yetirir. Bu liman şimal, cənub, şərq və qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəmizə daxil olan yüklərin toplanmasını, onların BTQ üzrə Avropa istiqamətində və ya gəmilərlə şərq istiqamətində daşınmasını təmin edən səmərəli və davamlı logistika zəncirinin formalaşması üçün əsas amildir.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanından danışarkən, bir məqmı da xatırlatmaq istərdik. Prezident İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədəki nitqində Beynəlxalq Dəniz Ticarət Limanının ikinci fazasına başlanılmasının zəruriliyinə toxunaraq, limanın genişləndirilməsinin önəmini diqqətə çatdırıb: “Mənə bu yaxınlarda verilən məlumata görə, artıq ərazimizdən keçən yükləri aşırmağa bizim imkanımız yoxdur. Çünki biz beynəlxalq ticarət limanını o vaxt olan yüklərə görə inşa etmişik, birinci fazasını başa çatdırmışıq. İndi tezliklə ikinci fazaya keçmək lazımdır. Hökumətə də tapşırıq verildi, nə lazımdırsa, onu edəcəyik”.

Azərbaycanın nəhəng kommunikasiya layihələrindən söhbət açarkən, reallaşdırılacaq Zəngəzur dəhlizinin əhəmiyyəti də qeyd eilməlidir. Çünki bu dəhliz vasitəsilə Azərbaycandan Türkiyəyə daşınan yükləri qısa müddətdə Avropa və Yaxın Şərq ölkələrinə çatdırmaq imkanı yaranacaq. Zəngəzur dəhlizi Azərbaycanın tranzit imkanlarını daha da genişləndirəcək.

İşğaldan azad edilən ərazilərdə dəmir yolu infrastrukturunun yenidən qurulmasına və təzə xətlərin çəkilməsinə artıq start verilib. Hazırda Bərdə-Ağdam, Horadiz-Ağbənd dəmir yolu xətlərinin yenidən qurulması və Füzuli-Şuşa təzə dəmir yolu xəttinin inşası istiqamətində işlər davam etdirilir.

Prezident İlham Əliyev tərəfindən təməli qoyulan Horadiz-Ağbənd dəmir yolu xəttinin uzunluğu 110,4 kilometrdir. Xatırladaq ki, bu xətlərin çəkilməsi Zəngəzur dəhlizinin fəaliyyətə başlaması üçün ilkin şərtdir. Bu səbəbdən də Horadiz-Ağbənd dəmir yolunda işlərin sürətlə həyata keçirilməsinə xüsusi önəm verilir. Birxətli dəmir yolu üzərində 8 stansiya tikiləcək. Bununla bərabər, layihə çərçivəsində ümumilikdə 300-ə yaxın süni mühəndis qurğusunun tikintisi planlaşdırılıb.

Zəngəzur dəhlizinin açılmasına Ermənistan mane olmaq istəsə də, dünyanın nüfuzlu ölkələri tərəfindən buna böyük maraq göstərilir. Çin, Rusiya və Türkiyə bu dəhlizin açılmasında israrlıdır. Üstəlik, Avropa ölkələri də bu dəhlizin açılmasını dəstəkləyir.

Prezident İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədəki nitqində nəqliyyat sahəsində də artım olduğunu vurğulayaraq, tranzit yüklərin həcminin təxminən 30 faiz artdığını qeyd edib. Dövlətimizin başçısı daha sonra deyib: “Bəzi istiqamətlər üzrə, xüsusilə Şimal-Qərb Nəqliyyat Dəhlizi üzrə artım 300 faizdir. Bizim coğrafi yerləşməyimiz və yaradılmış infrastruktur, əlbəttə, imkan verir ki, biz çox önəmli tranzit ölkəsinə çevrilək. Onsuz da Azərbaycan üzərindən tranzit yüklərin daşınması hər il artır, amma bu il biz daha kəskin artım görürük. Əlbəttə, burada Zəngəzur dəhlizinin imkanları da nəzərə alınmalıdır. Ona görə biz Zəngəzur dəhlizinin yaradılmasına daha sürətlə çalışırıq”.


***V.BAYRAMOV,***
***“Xalq qəzeti”***



Xalq qəzeti .- 2022.- 27 iyul.- S.3.